# C. Hacıyevin yaradıcılığında pianistik prinsipləri

**İradə Əhməd qızı Əhmədova**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinın*
*baş müəllimi*
**E-mail:** musicland81@rambler.ru

**Rəyçilər:** s.ü.f.d., dos. K.R. Sədirxanova,
s.ü.f.d., dos. A.F. Aşumova

**Açar sözləri:** ballada, silsilə, fortepiano, prinsip, musiqi, milli, sənət, bəstəkar
**Ключевые слова:** баллада, цикл, фортепиано, принцип, музыка, народная, искусство, композитор
**Key words:** ballad, cycle, piano, principle, music, national, art, composer

Milli fortepiano musiqisinin hüdudları geniş olduğundan biz bədii-tərbiyəvi dəyəri baxımından xarakterizə edilən bəstəkarların yaradıcılığıyla qənaətlənirik. Bu baxımdan Azərbaycan klassiklərindən - Q.Qarayev, F.Əmirov, C.Hacıyev, T.Quliyevvə başqalarının əsərlərini xüsusi qeyd etməliyik. Məhz adlarını çəkdiyimiz bəstəkarların əsərlərində milli intonasiyalarına istinad edən klassik musiqi janrlarının üzvi surətdə vəhdəti daha parlaq şəkildə nəzərə çarpır. Bu da öz növbəsində tələbələrin musiqi tədrisində milli professional musiqidən istifadənin imkanlarını əhəmiyyətli dərəcədə genişləndirir və zənginləşdirir. Azərbaycan xalqının geniş dairələrinin bilavasitə bəstəkarlıq yaradıcı ilə bağlı olan musiqi sənətinə cəlb edilməsinə Üzeyir Hacıbəyovun rolu əvəzsiz və həlledici olmuşdur. Məhz o, Azərbaycan musiqisinin professional tərzdə inkişafının fundamentini qoyaraq dövlət səviyyəsində milli musiqi mədəniyyətilə bəstəkarlıq yaradıcılığının qarşılıqlı əlaqəsinə əsaslanan professional musiqi təhsilinin yaranması sistemilə bağlı olan ideyaların müəllifi və təbliğatçısı olmuşdur.

Ümumdünya pedaqogika tarixinin tədqiqindən məlumdur ki, Şərq və Qərbin bütün alimləri hər zaman estetik təhsil və tərbiyəni bütövlükdə ümumtəhsilin aytılmaz hissəsi hesab ediblər. Bu baxımdan musiqi tərbiyəsi bu prosesin aparıcı vasitələrindən biridir. Bununla yanaşı musiqi mədəniyyətinin milli əsası təhsilin metodikasında ən əsas müəyyənləşdirici və formalaşan qollardan biridir. Musiqi estetik tərbiyənin qüvvətli təsir gücünə malik vasitələrindən biridir. Musiqi səs İncəsənət, təfəkkürün səs obrazıdır. Həyat varlığını xoş tərənələr, bədii obrazlar vasitəsilə əks etdirən musiqi tarix boyu ictimai ideyanın və mədəni tərbiyənin bir amili olaraq inkişaf etmişdir. Musiqi böyük emosional təsir qüvvəsinə malik sənətdir. O, insanların ideya etiqadının, əxlaqi və estetik ideyallarının formalaşmasında mühüm vasitədir.

Azərbaycan musiqisinin inkişafına səbəbkar olan sənətkarların arasında Cövdət Hacıyevin adını çəkmək lazımdır. Və, xüsusi olaraq, Azərbaycan simfonizminin təşəkkül və inkişafında bu bəstəkar çox mühüm rol oynayıb. Ancaq öz yaradıcılığında C.Hacıyev tək simfonik musiqisinə yox, başqa janrlara da müraciət edir, fortepiano musiqisinə. Hələ konservatoriyada oxuyan zaman o, bu alət üçün bir neçə əsər yazmışdır - variasiyalar və prelüdlər silsiləsi. Ancaq bu, bəstəkarın ilk təcrübələri idi, əsas nailiyyətləri isə sonrakı dövrə aiddir. Ən parlaq, dinləyicilərin rəqbətini qazanan və böyük müvəffəqiyyəti olan əsər «Ballada»dır. Bu pyes Azərbaycan fortepiano musiqisinin ən parlaq əsərlərindən biri sayılır. Bu pyesin bir çox xarakterik əlamətləri onun xalq instrumental musiqisinin improvizasiya ənənəsi və muğam reçitativ deklamasiyası ilə əlaqəsini olduqca inandırıcı təsdiqləyir. Muğam əsası ilə balladanın epik hekayəli

xarakteri bağlıdır, amma, buna baxmayaraq, bu pyesin bir neçə epizodları dərin dramatizmlə muğamdan fərqlənir. Balladada tez-tez dəyişən metrin müxtəlifliyi, xalq musiqi sənətinin improvizasiya üsulu ilə bu musiqinin əlaqəsini daha da artırır.




Balladanın iki obraz - tematikli sahəsi təsirli dramaturq ziddiyyəti yaradır. Bu əsərin mənasını A. Puşkinin «Keçmiş günlərin işləri», köhnə zamanların rəvayəti sözləri ilə təsvir etmək olar. Ballada dinləyiciləri öz xalqının tarixinin səhifələri, onun şücaətli keçmişi ilə tanış edir; həmçinin o, gənc nəsildə öz vətəninə, onun şanlı keçmişinə qarşı qürur hissi yaradır.

Hekayəliyin və dramatizm ziddiyyətin elementləri balladanın musiqisində ayrılmaz surətdə bir-birinə sarınıb. Burada tematik material hər dəfə təzə rənglərə boyanır - melodiklıydən yüksək patetizmə qədər. Pyesin orta hissəsi tokkatlığa meyillidir və kulminasiya cizgilərinə malikdir. Balladanın dolğun obrazlığı bütövlüyün dəqiq arxitektonikası ilə birləşir. Tamamlama bizi əsərin əvvəlində verilən hekayəliyə qaytarır. Beləliklə, bütün formanın bitkinliyi əldə edilir. Bu geniş yayılmış üsul sözsüz klassik ənənə ilə bağlıdır. Balladadan sonra bəstəkar fortepiano üçün lya major sonata və skerso yazır. Öz əsərlərində Hacıyev həmişə xalq yaradıcılığına əsaslanır, ancaq hər bir əsərdə müxtalifcəsinə. Tipik xalq-mahnı intonasiyasından, melodik və ritmik dönmələrdən başlayaraq, balladada olduğu kimi, sonralar sonata və skersoda daha Hacıyev Azərbaycan xalq musiqisindən dolğun və geniş istifadə edir. Folklor sitatından istifadə etməyərək o, milli əsaslara güvənərək həqiqi mənada xalq üslubunda yazılmış əsərlər yaradır.

C.Hacıyevin fortepiano üçün yazılan bir neçə əsərləri onun yaradıcılıq baxımdan çox cəhətli olmağını, bədii ustalığının müxtəlifliyini təsdiq eləyir. Bu əsərlər kiçik sayda olmağına

baxmayaraq, onlar Azərbaycan fortepiano ədəbiyyatını çox zənginləşdiriblər. C.Hacıyevin fortepiano üçün yazılmış «Musiqi lövhələri» silsiləsi haqında bir neçə söz demək istəyirik. Bu silsilə səkkiz pyesdən ibarətdir. Təəssüflər olsun ki, bu pyeslər praktik işdə çox az istifadə olunurlar. Silsiləni «gəzinti» pyesi açır, bu çox enerjili və şən bir səhnədir. Müəllif burada musiqi ifadəliyinin müxtəlif üsullarını istifadə eləyir, məsələn parlaq sekunda səslənmələri, üç səsliyin elementləri. Ancaq əsas hərəkət formasını qammaşəkillilik təşkil edir. Pyesə oynaq, coşqun xarakteri orta hissə verir, çünki burada melodiya sekvensiya üsulu ilə yuxarıya qalxır. Və kiçik bir lada təkrar olunan materialın müxtəlif səslənməsini tələbələrə çatdırır.

Lirik düşüncələr dünyasına bizi «Əfsanə» adlı pyes daxil edir. Əsərin lirik-hekayəli xarakteri mövzunun bas reqistrində verilməsinə imkan yaradır. Sonra mövzu səlis orta reqistrə keçir və müəllif bizdən leqato üsulunda ifanı edir (bu tələb silsilənin bütün yavaş templi pyeslərinə aiddir).




Silsilənin gələn pyesi - «Zarafat»-ı biz bəstəkarın fortepiano üçün yazılan skersonun marş mövzusu ilə müqayisə edə bilərik. Müəllif burada üç reqistr təbəqəsindən istifadə edir, onların əlaqələndirilməsi partitura ifadəsinə oxşayır. Əgər bu pyesin bədii - tərbiyəvi əhəmiyyəti haqqında söhbət açsaq, onda, bu zaman, uşaqların orkestr düşüncəsinin və ya onun başlanğıcının yaranması haqqında danışa bilərik. Sirli və möcüzəli sürətlər «Nağıl» pyesinə xarakterikdir. Bu pyes uşaqların yaradıcılıq təsəvvürünü inkişaf edir. Gələn «Etüd» pyesinin xarakterini aşağıdakı sözlərlə ifadə etmək olar: «dəcəl», «yumoristik». Həmçinin, zarafatcıl xasiyyət «Marş» pyesinə də məxsusdur. Gənc dinləyicilərin təsəvvüründə məzəli nağıl qəhrəmanlarının truba və baraban səslərinin altında addımlamaları yaranır.

Lirik «Yavaş» rəqsdə bəstəkar səs təbəqəsinin «yığılması» prinsipindən istifadə edir, bu da fakturanın sıxlaşmasına gətirir. Dolğun orkestr səslənməsinin təəssuratı yaranır. İmprovizasiya formasında izah edilmiş «Epiloq» müəllifin «düşüncələrini» ifa edir, və elə bil, gənc dinləyicini real, «böyüklər dünyasına daxil edir.

C.Hacıyevin parlaq, müasir musiqi dili milli folklor cizgilərilə harmonik üsulla uyğunlaşır. Müəllif şifahi xalq-instrumental musiqisinin ən tipik stil elementindən «Nağıl» pyesində çox geniş istifadə edib. Bu element xarakterik sekund səslənmə və yumşaq oxuma bəzəkləridir. «Yavaş, rəqs» və «Epiloq»-un parlaq göstərilmiş muğam əsası onlarda geniş reqitativlik im-

provizasiya mühiti yaradır.

C. Hacıyevin «Musiqi lövhələri»ni tam haqlı olaraq musiqi - tərbiyəvi əsər adlandırmaq olar: tələbələr bu musiqinin əsasında böyüyürlər, çünki bəstəkar bu pyeslərdə dərin fikir və obrazlar yaradıb.

Ümumiyyətlə, görkəmli Azərbaycan bəstəkarlarının yaradıcılığı və əsasən də fortepiano əsərləri tələbələrin musiqi savadının inkişafında çox böyük rol oynayır. Məhz, milli faktor və Azərbaycan xalq musiqisinin xüsusiyyətləri bu prosesin fəaliyyətini daha da artırır. Hələ dahi Üzeyir Hacıbəyov böyüməkdə olan nəslin səmərəli tərbiyəsində praktiki yol axtararaq, Azərbaycan melosunun mənimsənilməsini təhsil üçün əsas material hesab edirdi. Bu məsələ ilə bağlı akademik B.Asafyevin fikirlərini də xatırlamaq olar. Ümumiyyətlə, bu problemlə dünyanın bir çox bəstəkarları - B.Bartok, E.Vila Lobos da məşğul olmuşlar. E.Vila Lobos ömrünün böyük hissəsini Braziliya musiqi materialları əsasında Braziliya uşaqlarının musiqi savadının inkişaf problemlərinə həsr etmişdir. Xarici ölkə nümayəndələrinin musiqi mədəniyyətinin fəaliyyətində bir qədər dəqiq dayanmamızın səbəbi ondadır ki, biz də öz fikirlərimizdə, baxışlarımızda və fəaliyyətmizdə tək deyilik.

Təqdim etdiyimiz bu məqalədən də məlum olur ki, böyüməkdə olan gənc nəslin tərbiyəsi və inkişafında milli musiqinin roluna xüsusi əhəmiyyət verən Azərbaycan bəstəkarlarından - A.Zeynallı, Q.Qarayev, F.Əmirov, C.Hacıyev və başqaları onlar üçün külli miqdarda pyes və silsilələr yazırdılar. Musiqidə klassik ənənələrə yüksək qiymət verən azərbaycan bəstəkarları bu ənənələri «konservləşdirməyərək» onları inkişaf etdirməyə cəhd göstərirlər.

**Məqalənin aktuallığı.** Cövdət Hacıyev yaradıcılığının tələbələrin fortepiano təhsili prosesində vacib rol oynamasını nəzərə alsaq, məqalə aktual hesab edilməlidir.

**Məqalənin elmi yeniliyi.** C.Hacıyevin əsərlərinin müasir pianoçularının repertuarına daxil edilməsi bununla əlaqədardır ki, bu əsərlər XX əsr dünya musiqisinin parlaq nümunələridir.

**Məqalənin praktik əhəmiyyət və tətnbiqi.** Məqalədən C.Hacıyevin fortepiano əsərlərinin düzgün interpretasiyasının tapılmasında müəllim və tələbələr yararlana bilər.

## Ədəbiyyat

1. Абасова Э.Г., Касимов К.А. Очерки музыкального искусства Советского Азербайджана. Баку, 1970.
2. Абезгауз И.В. Джевдет Гаджиев. Баку, 1965.
3. Алексеев А.Д. Методика обучения игре на фортепиано. М.,1978.
4. Сеидов Т.А. Азербайджанская Советская фортепианная музыка. Баку, 1980.

**И.А. Ахмедова**

## Пианистические принципы в творчестве Джовдета Гаджиева

## Резюме

Дж. Гаджиев внес определенный вклад в национальное фортепианное наследие. Произведения, которые исследуются в данной статье, представляют собой несомненную ценность в процессе обучения. На примерах его Баллады и фортепианного цикла «Музыкальные картинки» наглядно отражены типичные интонации народных песен.

Представленные произведения широко используются в репертуаре студентов и пользуются популярностью у современных пианистов, как Азербайджана, так и других стран.

**I.A.Ahmadova**

## Piano principles in the work of Jovdet Hajiyev


## Summary

J.Hajiyev made a certain contribution to the national piano heritage. The works that are studied in this article are of undoubted value in the learning process. Examples of his Ballad and piano cycle "Musical pictures" clearly reflect the typical intonation of folk songs. The presented works are widely used in the repertoire of students and are popular among modern pianists, both in Azerbaijan and other countries.


**Redaksiyaya daxil olub:** 15.01.2020